AZCD
Group

## SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

"AZCD Group" QSC-nin (bundan sonra "Cəmiyyət" adlanacaq) başlıca məqsədi öz işində mövcud yerli və beynəlxalq tələblər əsasında tikinti, istehsal və istismar fəaliyyəti zamanı insanların sağlamlığına və əmlakına ziyan vurmadan bu sahədə təhlükəsiz iş mühiti yaratmaqdır.

Bununla əlaqədar olaraq Cəmiyyətin rəhbərliyi tərəfindən bu istiqamətdə aşağıdakı hədəflər müəyyənləşdirilmişdir:

- ISO 45001:2018 standartının tələblərinə uyğun olaraq Əməyin Mühafizəsi və Təhlükəsizliyi Sisteminin işini qurmaq və inkişaf etdirmək;
- Cəmiyyət əməyin mühafizəsi və texniki təhlükəsizliyə aid olan Azərbaycan Respublikası qanunlarının, qaydalarının və digər qanunverici normativ hüquqi aktların tələblərini rəhbər tutur;
- Siyasətin həyata keçirilməsində prioritet məsələ işçilərimizin, podratçı cəmiyyətin işçilərinin və əhalinin sağlamlığına ziyan vura biləcək hər hansı təhlükənin qarşısının alınması üçün bütün mümkün tədbirlərdən istifadə etmək;
- Cəmiyyət işçilərinin təhlükəsiz avadanlıqlar və lazımi fərdi mühafizə vasitələri (FMV) ilə təchiz edilməsi, xəsarət zamanı dərhal ilkin yardım və tibbi xidmətin göstərilməsi üçün lazımi şərait yaratmaqdır;
- Cəmiyyət baş vermiş bütün hadisələri tədqiq və təhlil edib, oxşarının baş verməməsi üçün qabaqlayıcı tədbirlərin görülməsi və bu barədə işçi heyətin təlimatlandırılmasını və məlumatlandırılmasını həyata keçirir;
- Cəmiyyət işçilərin Əməyin Mühafizəsi və Təhlükəsizliyi sahəsi üzrə biliklərin, vərdişlərin yüksəldilməsi istiqamətində olan müvafiq işləri həyata keçirir;
- Bundan başqa Cəmiyyət iş yerlərində və istehsalatda ən müasir, təhlükəsiz texnologiya və texnikanın tətbiqinə nail olmağa çalışır;
- Əməyin Mühafizəsi və Təhlükəsizliyi Siyasətinə yenidən baxmaq və lazım gəldikdə ona dəyişikliklər etmək rəhbərlik üçün prioritet məsələlərdən biridir.

"AZCD Group" QSC bütün prinsiplərə əməl etməklə iş zamanı insanların təhlükəsizliyinə, sağlamlığına və əmlakına zərər vura biləcək hər hansı təhlükələrin qarşısının alınması və ya minimuma endirilməsi üçün mümkün olan bütün tədbirlərdən istifadə etməklə bu Siyasətin həyata keçirilməsinə nail olmağa çalışır.

**Direktor:**
**Fuad Ələkbərov**

Azərbaycan Respublikası QAPALI SƏHMDAR CƏMİYYƏTİ AZCD GROUP Closed Joint-Stock Company

**Avqust 2021**